AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

RİSALƏ

Elmi araşdırmalar jurnalı

16

Bakı – "Elm və təhsil" – 2019

Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
Elmi Şurasının 15 mart 2019-cu il tarixli (protokol № 3)
qərarı ilə çap olunur.

Baş redaktor:
Rafael Hüseynov,
akademik

Redaksiya heyəti:
Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Xatirə Bəşirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan
Özgen Felek, filologiya üzrə elmlər doktoru, professor, Yel Universiteti, ABŞ
Mbaye Lo, filologiya üzrə elmlər doktoru, professor, Dyuk Universiteti, ABŞ
Hendrik Boeşoten, filologiya üzrə elmlər doktoru, professor,
Maynz Universiteti, Almaniya
Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor, Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası
Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan
Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan
Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan

Risalə. Elmi araşdırmalar jurnalı. *№1.2019(16)*
Bakı, "Elm və təhsil" nəşriyyatı, 2019, 208 s.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin beş topludan ibarət elmi-tədqiqat "Xəmsə"sinə ("Şərq" – Tərcümə toplusu, "Məclis" – Mərasimlər toplusu, "Xəzinə" – Kataloqlar toplusu, "Qaynaq" – Mənbələr toplusu) daxil olan "Risalə" – Elmi araşdırmalar jurnalının bu sayı akademik Rafael Hüseynovun rəhbəri olduğu gənc alimlərin məqalələrindən tərtib edilmişdir. Məqalə müəllifləri arasında elmlər doktorları, fəlsəfə doktorları da var, dissertasiya müdafiəsinə hazırlaşan cavan tədqiqatçılar da. Akademik Rafael Hüseynovun elmi məktəbinin təmsilçiləri olan bu araşdırıcılar Azərbaycan klassik və müasir ədəbiyyatının bir sıra aktual və az öyrənilmiş problemlərinə yeni görüş bucağından yanaşırlar.

© AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
© 2019

UOT 821.512.164.

Hülya ASLANOVA

AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin doktorantı
hulya.aslanova@gmail.com

ƏTA TƏRZİBAŞI: FOLKLORŞÜNASLIQ FƏALİYYƏTİ VƏ ELMİ-ƏDƏBİ FİKİRLƏRİ

Açar sözlər: *İraq-türkman ədəbiyyatı, Əta Tərzibaşı, Kərkük, folklor, sərbəst şeir*

Key words: *Iraqi-turkman literature, Ata Terzibashi, Kirkuk, folklore, free verse*

Ключевые слова: *Иракско-туркманская литература, Ата Терзибашы, Киркук, фольклор, свободный стих*

Giriş. Türkmanların İraqda meydana gətirdikləri ədəbiyyat tarix boyunca inkişaf edərək dünya ədəbiyyatına zəngin miras bəxş etmişdir. Müasir İraq-türkman ədəbiyyatı öz inkişaf mərhələsində bir çox şair və yazıçıların yaradıcılığı ilə zənginləşmişdir. Onlar öz qələmlərini həm əruz, həm heca, həm də sərbəst vəznlərdə sınamışlar. Bu ədəbiyyatı təmsil edənlər arasında klassik poeziya ənənələrinə bağlı şairlər olduğu kimi, yeni ədəbi cərəyanları təmsil edən şairlər də vardır. İraq-türkman poeziyasının yaradıcılarından bir qismi öz ədəbiyyatlarını ən çox Azərbaycan ədəbiyyatı ilə bağlayırlar [2, s.58]. Bu, əlbəttə, əsassız olmayıb, etnik mənşə, dil, adət-ənənə yaxınlığı və tarixi tale kimi birləşdirici amillərdən doğmuşdur.

Həyatı. İraq-türkman ədəbiyyatının görkəmli nümayəndələrindən biri Əta Tərzibaşıdır. O, ədəbiyyat sahəsində verdiyi töhfələr sayəsində İraq-türkman ədəbiyyatının bu günə qədər yetişdirdiyi ən dəyərli ədiblərindən hesab edilir. Əsl adı Hacı Ömər Ataulla [10, s.16] olan Əta Tərzibaşı Kərkükün tanınmış ailələrindən birinə mənsub olub, Kərkükdə dünyaya gəlmiş, ilk təhsilini bu şəhərin məktəblərində almış, daha sonra Bağdad Universiteti Hüquq fakültəsinə daxil olmuşdur [2, s.85]. Muhsin Behçet Şakir özünün "İraqda XX əsr türkman ədəbiyyatı" kitabında ədibin doğum tarixini 1922-ci il kimi göstərsə də [12, s.84], əksər mənbələrdə onun doğum tarixi 14 noyabr 1924-cü il [12, s.84; 9, s.10; 7, s.444] kimi verilir. Onu da qeyd edim ki, Əta Tərzibaşının 1924-cü il noyabrın 14-də anadan olması faktı ədibin atasının apardığı qeydlər dəftərindən götürülmüşdür [13, s.18].

Hüquq fakültəsindən məzun olduqdan sonra vəkillik etmiş və eyni zamanda həftəlik ədəbiyyat və mədəniyyət qəzeti olan "Bəşir" qəzetinin redaktoru vəzifəsində çalışmışdır. Cəmi 26 nömrəsi nəşr olunan bu qəzet 1959-cu il mart ayının 17-də hərbi vəziyyət rəhbərliyi tərəfindən verilən hərbi qərarla bağlanır və elə həmin mart ayında ədib həbs olunaraq Hilləyə sürgün edilir [3, s.21]. Diktator Əbdülkərim Qasımın dövründə türkmanlara qarşı törədilən terror və təzyiqdən nəsibini almış Tərzibaşı daha sonra Kərkükə qayıdaraq vəkillik fəaliyyətini bərpa etmiş, təqaüdə çıxana qədər bu işini davam etdirmişdir [9, s.10].

Hakimlərin, prokuror və vəkillərin hörmətini qazanmış ədib 1955-ci ildən ömrünün sonuna kimi Kərkük Vəkillər İttifaqının başçısı olmuşdur [13, s.19].

Ədib 2016-cı il mart ayının 31-də 92 yaşında doğma şəhəri Kərkükdə vəfat etmişdir [11]. Həssas bir təbiətə malik olan Tərzibaşı bu xüsusiyyətini peşəsində, əsərlərində, bütün işlərində əks etdirərək heç bir maddi mənfəət güdməmiş, pul qazanmamışdır. Doğruları və reallıqları olduğu kimi çatdırmağa çalışan Tərzibaşı bu realist yanaşmasından heç bir zaman vaz keçməmişdir.

Əta Tərzibaşı istər öz fəaliyyəti, istərsə də öz şəxsiyyəti ilə xalqın, eləcə də yerli və xarici həmkarlarının rəğbətini qazanmışdır. İraq türkmanlarının qüruru və fəxri olan ədib İraq, Türkiyə, İran, Azərbaycan və Orta Şərq ölkələrində tanınmış və böyük hörmət qazanmışdır. Bunu onun haqqında deyilən fikirlərdən də aydın görmək olar.

Ankarada Türkməneli Mədəniyyət Mərkəzinin başçısı dr. Mustafa Ziya onun haqqında "Əta Tərzibaşı həyatını İraq-türkman mədəniyyəti haqqında tədqiqat aparmaqla keçirmişdir. Ədəbiyyat tarixi, folklor, musiqi, mətbuat, memarlıq tarixi kimi mədəniyyətin hər sahəsində kitab və məqalələr yazmışdır. Başda Türkiyə və Azərbaycan olmaqla Türk dünyası İraq-türkman mədəniyyətini Əta Tərzibaşının kitablarından tanımışdır" [3, s.9] sözlərini demişdir.

Azərbaycan ədəbiyyatşünası, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev də Əta Tərzibaşının fəaliyyətini yüksək qiymətləndirmiş və ədiblə yaxın dostluq münasibətlərində olmuşdur. Bu, onlar arasında uzun müddət davam edən yazışmalardan açıq-aydın görünür. Əta Tərzibaşı tərəfindən toplanan "Arzı-Qənbər" dastanına yazdığı ön sözdə Qəzənfər Paşayev ədib haqqında aşağıdakı sözləri demişdir: "Əta Tərzibaşı hərtərəfli alimdir. Təsadüfi deyildir ki, o, Türk Dil Qurumunun müxbir üzvüdür. Gözəl dilçi, folklorşünas və musiqişünas olan Əta Tərzibaşı həm də yaxşı jurnalist və tənqidçidir. Kərkük dialektində rast gəlinən bir çox fonetik və qrammatik hadisələr barədə ötəri də olsa ilk dəfə söz açan Əta Tərzibaşı olmuşdur" [1, s.6].

Sübhi Saatçı da, öz növbəsində, Əta Tərzibaşının Füzuli haqqında yazdığı məqalələrindən ibarət toplunun təqdimatında ədib haqqında "İraq-türkman mədəniyyətinin ən böyük avtoriteti olan Əta Tərzibaşı ömrünü mənsub olduğu cəmiyyətin mədəni irsini araşdırmağa həsr etmiş böyük bir bilici və idealist bir şəxsiyyətdir. Türkman cəmiyyətinin tarix boyu yaratdığı mədəni irsi hərtərəfli araşdıran Tərzibaşı bir-birindən qiymətli kitablar yazmışdır. Bununla yanaşı, yüzlərlə məqalə yazmış, beynəlxalq konfranslarda təbliğatlar aparmış, bir çox araşdırma və tədqiqatları elm dünyasında maraqla qarşılanmışdır" [13, s.7] sözlərini deyərək onun türkman mədəniyyətinin dünyaya çatdırılması sahəsində gördüyü işləri yüksək qiymətləndirmişdir.

Folklorşünaslıq fəaliyyəti. Əta Tərzibaşı İraq-türkman ədəbiyyatı, mədəniyyəti və folkloru sahəsində apardığı araşdırmalarla tanınmışdır. Şöhrəti İraqdan başqa Türkiyə və Azərbaycan ərazisində də yayılmış və bu sahədə türkman mədəniyyətinin ən böyük təmsilçisi olmuşdur [7, s.444]. Onun yazıları şəxsi duyğu və düşüncələrinin güzgüsüdür. O, hər dəyərli İraq ədibi kimi hər şeydən öncə düzgünlük və gerçəklik axtarmış, həyatın hər cür çətinlikləri qarşısında qələminə hörmət və inancını itirməmiş, yaşadığı İraq torpağına bağlılığını daim qoruyub saxlamışdır [12, s.85].

Araşdırma fəaliyyətinə gənc yaşlarında başlayan Tərzibaşı ilk yazısını hüquq fakültəsində tələbə ikən yazmış və Misirdə nəşr olunan "ər-Risalə" jurna-

lında çıxarmışdır [7, s.444]. Daha sonra onun yazıları Qahirədə "əl-Risalə", Beyrutda "əl-Ədib", Hələbdə "əl-Hədis", İstanbulda "Türk Yurdu", Ankarada "Türk dili" jurnal və qəzetlərində çap olunmuşdur. Kərkükdə "Afaq" və "Kərkük" qəzetlərinin daimi yazarlarından olan Tərzibaşı türkcə "Bəşir" və ərəbcə "əl-Səqafə" adlı həftəlik ədəbi qəzetlərin təsisçisi olmuşdur [3, s.33]. Bundan əlavə, o, Türkiyə və İraqda türkologiya və folklor mövzusunda keçirilmiş bir çox beynəlxalq konqres və simpoziumlarda iştirak etmiş, türkman mədəniyyəti, ədəbiyyatı və folkloru sahəsində təbliğatlar aparmışdır.

Ədib yuxarıda adı çəkilmiş qəzet və jurnallarda nəşr etdiyi 268 elmi məqaləsi [3, s.38] ilə yanaşı, hüquq, mədəniyyət, ədəbiyyat və incəsənət mövzusunda bir sıra kitabın da müəllifidir. Bu kitablara misal olaraq hüquq sahəsində yazdığı "Taliqat ala əl-Taliqat əl-Vafiyə", 200 şərqi və türkünü ehtiva edən "Şərqi və türkülər", unudulmuş xalq melodiyalarını əhatə edən "Kərkük havaları", "Kərkük xoyrat və maniləri", 700 atalar sözünü ehtiva edən "Kərkük əskilər sözü", Füzulinin "İcmali Aşk" kitabının tərcüməsi, "Arzu-Qənbər" dastanı, 1879-1985-ci illərdə Kərkükdə nəşr olunan qəzet və jurnallar, nəşriyyat evləri haqqında "Kərkük mətbuat tarixi", Kərkükdə və Ərbildə yaşayıb-yaratmış şairlərin həyat və yaradıcılığını ələ alan "Kərkük şairləri" və "Ərbil şairləri", Kərkük şəhəri və ətrafında tikilmiş 62 tarixi tikilinin yaranma tarixini əks etdirən "Kərkükdə imarət və təsislərin mənzum tarixləri", İraq-türkman ədəbiyyatı tarixində ilk səyahətnamə olan "Sərgüzəşt-i Səadət" ("Xoşbəxt Həcc ziyarəti"), Kərkük və türkman cəmiyyəti haqqında tarixi, ictimai, ədəbi məqalələr toplusu olan "Türkman kəşkülü", görkəmli şairlər Kərküklü Şeyx Rıza, Kərküklü Muhiddin Qabil Əfəndi, Şeyx Əbdülqadir Faizin həyat və yaradıcılığı haqqında yazdığı "Kərküklü Şeyx Rıza və türkcə şeirləri", "Kərküklü Kabil", "Kərküklü Faiz" kitablarını, eləcə də "Kərkük ağzı" türkman dili lüğətini göstərmək olar.

Adı çəkilən kitablardan da göründüyü kimi, ədib yaradıcılığında folklor araşdırmalarına geniş yer vermişdir. O, folklor sahəsində araşdırmalara 1950-ci illərdən etibarən başlamışdır [7, s.444]. Onun bu fəaliyyəti folklor və xalq ədəbiyyatı nümunələrini, xoyrat və mani dördlüklərini, atalar sözləri və türkülərini sistemli şəkildə toplamaq və kitab halına salmaq məqsədini güdürdü. Tərzibaşı İraq türkmanlarının xalq ədəbiyyatı sahəsində ilk olaraq elmi metodla çalışaraq yeni nəsil üçün yol göstəricisi olmuş, ədəbi tənqidləri bir çox şair və yazıçının fəaliyyətinə təsir göstərmişdi [9, s.10-11]. "Kərkük xoyratları və maniləri" kitabında ədib öz folklorşünaslıq fəaliyyətini belə dəyərləndirir: "Başqalarının bizim mədəniyyət sahəsində aparacaqları tədqiqat və araşdırmaları gözləməkdənsə, öz beyinlərimizi yoraraq öz gücümüz hesabına mövcud xam materiallarımızı əsl mənbələrdən toplayaraq işə yarar hala gətirmənin lüzumuna çoxdan inanmışıq" [12, s.84].

Tərzibaşının folklor sahəsində ilk araşdırma əsəri olan üçcildlik "Kərkük xoyrat və maniləri" kitabı özündə 2488 xoyrat və manini [13, s.33] ehtiva edir. Kitabın birinci cildində xoyrat və mani növünün tarixi, ikinci cilddə 850-yə qədər cinaslı xoyrat, üçüncü cilddə isə 1200-ə qədər cinassız xoyratlar verilmişdir [3, s.51]. İraq türkmanlarının xalq ədəbiyyatında xüsusi yerə malik xoyrat haqqında ədib "Kərkük anıldığı zaman xatirə ilk olaraq xoyrat gəlir və xoyrat adını duyduğumuz vaxt xəyalımızda Kərkük eli canlanır" [3, s.52] demişdir. Bu

kitab Bakıda professor Qəzənfər Paşayev tərəfindən "Kərkük bayatıları" adı altında çap olunmuşdur.

İraq-türkman xalq havalarının toplanması, tədqiqi və çapı da Əta Tərzibaşının adı ilə bağlıdır. Onun "Kərkük havaları" kitabı bu sahədə mükəmməl və ən əsası yeganə əsərdir. Türkman musiqi tarixinin əsası hesab edilir [13, s.29]. Bu kitabda o, xoyrat və manilərə nisbətən az yayılmış və unudulmuş xalq melodiyalarına yer vermişdir. Kitab Azərbaycanda professor Qəzənfər Paşayev tərəfindən 1975-ci ildə kiril əlifbası ilə "Kərkük maniləri" adı altında nəşr olunmuşdur. Bundan əlavə, İraq-türkman atalar sözləri və məsəllərini ilk olaraq toplayıb tədqiq və çap edən də məhz bu görkəmli folklorşünas olmuşdur. O, atalar sözlərinə böyük önəm verir, onlara dilin leksik-qrammatik qaydalarını tədqiq etmək işində əvəzsiz mənbə kimi yanaşır. 700 atalar sözünü ehtiva edən "Kərkük əskilər sözü" kitabında Tərzibaşı atalar sözlərini nəzəri cəhətdən təhlil etmiş, başqa ölkə və xalqların atalar sözləri ilə müqayisə etmiş, həmçinin onların yaranması ilə bağlı bir neçə hekayə də daxil etmişdir [3, s.170]. Kitab Azərbaycanda yenə professor Qəzənfər Paşayev tərəfindən 1978-ci ildə "İraq-Kərkük atalar sözləri" adı altında nəşr edilmişdir.

Türk xalqları arasında geniş yayılmış, lakin az öyrənilmiş dastanlardan biri olan "Arzı-Qənbər" dastanının kərkük ləhcəsində olan variantını ilk dəfə Əta Tərzibaşı canlı danışıq dilində toplayıb yayımlamışdır. Əta Tərzibaşı tərəfindən toplanmış "Arzı-Qənbər" 1964-cü ildə Bağdadda, sonralar Tehran və İstanbulda nəşr edilmişdir [4, s.7]. Dastanın Azərbaycanda nəşri isə professor Qəzənfər Paşayev tərəfindən həyata keçirilmişdir.

Əta Tərzibaşının türkman xalqına verdiyi dəyərli töhfələrdən biri də ədibin türkman dilində yazdığı "Kərkük şairləri" antologiyasıdır. 13 cilddə tərtib olunmuş bu əsərdə Kərkükdə yaşayıb-yaratmış bütün şair və şairələrin, müəllifin özünün qeyd etdiyi kimi, "divan sahibi şairlərdən tutmuş bir qəzəlini gördüyümüz şairlərə qədər Kərkükdə doğulmuş və ya yetişmiş bütün bildiyimiz köhnə və yeni şairlərin" [14, s.12] həyatı, həyat fəlsəfəsi, ədəbi şəxsiyyəti və yaradıcılığı ətraflı şəkildə şərh edilmiş, nəzm və nəsr əsərlərindən nümunələr verilmişdir. Kitabı hazırlayarkən ədib köhnə məcmuələrdən, şairlərin öz divanlarından, Kərkükdə çıxan qəzetlərdə şairlərin həyatları haqqında olan məlumatlardan faydalanmışdır.

Hərtərəfli bir tədqiqatçı olan Tərzibaşı folklorla yanaşı digər mövzulara da toxunmuş, məqalələr yazmışdır. Belə ki, o, Füzuliyə həsr edilmiş silsilə məqalələrin də müəllifidir: "Füzulinin doğum yeri", "Füzulinin ərəbcə qəsidələri", "Füzulinin "Mətləül-etiqad" əsəri", "Füzulidə gizli mənalar", "Füzulinin doğum yeri haqqında yeni məlumatlar", "Füzulinin doğum tarixini əks etdirən bir mənzumə", "Məktublaşma ədəbiyyatı və Füzulinin bir qəzəli" və s. Ədib 2015-ci ildə Füzuli haqqında yazdığı bütün yazılarını bir araya toplayaraq "Füzuli haqqında yazılar" adı altında kitab halına salmışdır. Təəssüf ki, bu kitab onun nəşr olunan son kitabı olmuşdur. Adıçəkilən kitab 18 mart 2016-cı ildə Azərbaycan Yazıçılar Birliyində "Azərbaycan–İraq türkmanlarının mədəni və ədəbi əlaqələri" mövzusunda keçirilən iclasda oxuculara təqdim olunmuşdur [11]. O, Füzulini "Azərbaycan təsiri altında qalmış xalis türkman şairi" [13, s.56-57] kimi təqdim edir və bunu Füzuli şeirlərinin dili ilə əsaslandırır: "İraq türklərinin dili Azərbaycan dilinə çox yaxın olmaqla bərabər, özünəxas ana xətlərlə önəmli özəlliklərə malikdir. Lakin qeyd etmək lazımdır ki, Füzulinin

şeirlərində rast gəlinən yüzlərcə özəl söz və ifadələr eynilə Kərkük xalqının istifadə etdiyi sözlərdən ibarətdir. Bundan əlavə, bəzi özəl cümlə tərkibləri də Kərkük türklərinin bildiyi tərkiblərdən başqa bir şey deyildir" [13, s.57].

Elmi-ədəbi fikirləri. Tərzibaşının toxunduğu mövzulardan biri də sərbəst şeir mövzusudur. Sərbəst şeirə olan münasibəti "Qardaşlıq" jurnalında dərc etdirdiyi "Saçma şeir" adlı məqaləsində aydın görünür: "Yazıq Baqilər, Şeyx Ğaliblər, Nədimlər, Füzulilər və miskin xalq ədəbiyyatının heca şairləri bu günləri görsəydilər, bəlkə də şeir yazmağa tövbə edərdilər" [5, s.30]. "Bəşir" qəzetinin baş redaktoru olan Tərzibaşı bu qəzetdə dərc olunan sərbəst şeirlərə əvvəlcə "özbaşına şeir", daha sonra isə "saçma şeir" adını vermişdi [8, s.1599]. Köhnə şeir ənənəsini müdafiə edən Əta Tərzibaşı sərbəst şeiri ibtidai şeirin təkrarı kimi qəbul etmiş, əsl şeir yazmanın fitri istedad tələb edən çətin bir iş olduğunu iddia etmiş, sərbəst şeirin isə hər kəsin yaza biləcəyi önəmsiz bir iş olduğunu dilə gətirmişdir: "Sərbəst şeiri yeni və hər yenini yaxşı sayanlar səhv edirlər... Gerçək şeir yazmaq çətin işdir, fitri istedad və bacarıq məsələsidir. Buna hər kəs sahib ola bilməz. Sərbəst şeir isə əsl şeirin əksinə, önəmsiz bir işdir, fitri istedada malik olmayan hər bir kəs asanlıqla onun öhdəsindən gələ bilər. Bu növ şeirdə hərdən qafiyəyə bağlılıq göstərilirsə də, vəzn və musiqi ahənginə önəm verilmir. Gözəl sözlər nəsr şəklində səpələnməkdədir" [5, s.30]. "Qardaşlıq" jurnalında nəşr etdiyi "Yeni şeir üzərinə" adlı digər bir məqaləsində yenidən bu mövzuya qayıdaraq sərbəst janrda yazılan gözəl nümunələrə rast gəlmənin mümkün olduğunu, lakin onları şeir adlandırmağın haqsızlıq olduğunu qeyd edir və gənc şairləri qələmlərini heca vəznində sınamağa çağırır: "Bu sözlər arasında gözəl parçalar tapılmaqla bərabər, hamısına birdən nəsr demək mümkün olmadığı kimi, şeir demək də haqsızlıq olar... Bu baxımdan gənc şairlərimiz fitri istedadlarını, fikrimizcə, ahəngli heca vəznində sınamalıdırlar. O zaman ilahi vergi sayılan şeirdəki qüdrət və qabiliyyət özü-özlüyündə bəlli olur" [6, s.36]. Ədibin yaşadığı dövrdə sərbəst şeirin geniş yayılmasına və bu janrda qələmini sınayan şair və şairlərin günbəgün artmasına baxmayaraq, o, bu yeni şeir növünün inkişafına inanmır və onun gələcəyinə şübhə ilə yanaşır. Belə ki, eyni məqalənin başqa bir yerində o yazır: "Hər nə qədər sərbəst şeir bu dövrdə bir axın halında olub yayılırsa, fikrimizcə, bu ahəngsiz şeir əvvəl-axır ölümə məhkumdur" [6, s.35].

Göründüyü kimi, Əta Tərzibaşının yaradıcılığının böyük hissəsi ədəbiyyat, ədəbi janrlar, ədəbiyyat tarixi, mətbuat tarixi, folklor araşdırmalarına həsr olunmuşdur və daha çox bu sahədə önə çıxmışdır. Lakin o, dil mövzusuna da laqeyd qalmamış, bu sahədə "Sağır kef", "Yazı dili, danışıq dili", "İraq türkləri və dil təmizlənməsi", "Dil sürüşmələri", "Əlifba kitabı və tövsiyələrimiz", "Kərkük manilərində bilinməyən türkcə sözlər" kimi məqalələr yazmış, lüğət tərtib etmişdir. "Yazı dili, danışıq dili" məqaləsində Əta Tərzibaşı türkman dilində danışıq dili ilə yazı dili arasındakı fərqin digər dillərdəki qədər dərin olmadığını sübut etmək üçün ərəb dili ilə müqayisələr aparmışdır [10, s.17]. Adıçəkilən məqalədə ədib türkman dili ilə Azərbaycan dilinin doğmalığına da toxunmuşdur: "İraq-türkman ləhcəsi azəri ləhcəsinə türk ləhcəsindən daha yaxın, bəlkə də, əkiz qardaşlar olmaqla bərabər, bu ləhcələr uzun bir tarix boyunca müxtəlif səbəblərin təsiri ilə bir-birindən xəbərsiz olaraq inkişaf etdikləri halda, aralarında görkəmli fərqlər bilinməmişdir" [3, s.167]. Tərzibaşının dilçiliklə bağlı yazdığı məqalələrdə önəm verdiyi məsələlərdən biri də

dilin təmizlənməsi məsələsidir. "Qardaşlıq" jurnalında çıxan "İraq türkləri və dil təmizlənməsi" adlı məqaləsində ədib bu məsələyə toxunur, orta əsrlərdə türk dilinə daxil olmuş ərəb və fars sözlərindən təmizlənmə prosesinə diqqət çəkir. Eyni zamanda, bu prosesin birdən-birə güc yolu ilə deyil, yavaş-yavaş və türk xalqları arasında bağlılığa xələl gətirməyəcək şəkildə həyata keçirilməli olduğunu vurğulayır [10, s.17]. O yazır: "Bu gün heç təhsil almamış nənə-babaların dili məktəbdə oxumuş gənclərin dilindən daha sadə və daha təmizdir. Əcnəbi dillərin təsirindən uzaq qalmış kəndlilərin dili şəhər sakinlərinin dilindən daha dolğun və daha məsumdur" [7, s.445].

Türk Dil Qurumunun təşkil etdiyi söztoplama çalışmaları əsnasında Tərzibaşı Kərkük ləhcəsinə aid 1375 söz [13, s.48] toplamış və nəticədə "Kərkük Ağzı Türkmanca Sözlük" lüğəti ərsəyə gəlmişdir. Bu lüğət digər lüğətlərdən fərqlidir. Özündə yerli sözləri ehtiva edən bu kitabda türkmanların danışıq dilində, yəni Kərkük ləhcəsində geniş yayılmış söz və terminlər, uşaq dilində istifadə olunan səs təqlidləri, folklorla bağlı sözlər, şəxs adları, Kərkük və türkmanlarla bağlı tarixi və coğrafi adlar, Qərbdən dolayı yolla keçən əcnəbi sözlər əhatə olunmuşdur [13, s.48-49]. Onu da qeyd edək ki, Tərzibaşı söztoplama fəaliyyətinə bu lüğəti tərtib etməzdən daha əvvəl, "Kərkük manilərində bilinməyən türkcə sözlər" məqaləsi ilə başlamışdır.

Tərzibaşının dilçilik sahəsində göstərdiyi bu xidmətlər əvəzsiz qalmamışdır. O, 1964-cü ilin may ayında Türk Dil Qurumunun "yardımçı üzvü", 1996-cı ilin iyun ayında "şərəfli üzvü" seçilmişdir [10, s.17]. Ədib, eyni zamanda, Azərbaycan Yazıçılar Birliyinin də fəxri üzvü seçilmişdir.

Nəticə. Ömrünü türkman ədəbiyyatının, dilinin, folklorunun və mətbuat tarixinin öyrənilməsinə həsr etmiş Əta Tərzibaşı türkman xalqı qarşısında misilsiz xidmət göstərmiş, özündən sonra zəngin bir irs qoyub getmişdir. Bu irs İraq-türkman ədəbiyyatının, xüsusilə də folklorunun bir araya toplanması, itibbatmaması və bütün dünyaya tanıdılması baxımından türkman xalqı üçün əvəzsiz, qiymətli bir töhfədir. Bu möhtəşəm əsərlər və ədibin şəxsi nümunəsi sayəsində gələcəyin folklorşünas və ədəbiyyatşünaslar nəsli yetişmişdir. Siyasi oyunlar ucbatından təzyiq və işgəncələrə məruz qalmış türkman xalqının tarixə qarışmış, tozlanmış zəngin ədəbi mirası Əta Tərzibaşı və onun elmi-ədəbi fəaliyyəti sayəsində dirçəldi desək, mübaliğə etmərik. Onun bu xidmətləri əvəzsiz qalmamış, xalqın, xarici və yerli həmkarlarının hörmət və sevgisini qazanmışdır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

Azərbaycan dilində:

1. Arzı-Qənbər: Kərkük xalq dastanı /[ön söz. müəl. və red. Q.Paşayev; toplayanı Əta Tərzibaşı]. Bakı, "Gənclik", 1971, 30 s.

2. Xıdırov C. İraq türkmanları [Qısa tarixi, ictimai-siyasi və ədəbi məlumat), Bakı, Azərnəşr, 1993, 104 s.

3. Paşayev Q. Əta Tərzibaşının folklorşünaslıq fəaliyyəti, Bakı, "Təhsil", 2016, 262 s.

4. Pirsultanlı S.P. Qədim "Arzu-Qənbər" dastanının yayılma coğrafiyası və poetikası. Gəncə, Gəncə Dövlət Universiteti, 2013, 272 s.

İraq-türkman dilində:

5. Tərzibaşı A. Saçma şeir// "Qardaşlıq" dərgisi. Temmuz, 1965, yıl:5, №3, s.29-31.

6. Tərzibaşı A. Yeni şeir üzərinə// "Qardaşlıq" dərgisi. Kasım-Aralıq, 1964, yıl: 4, №7-8, s.35-36.

Türk dilində:

7. Başlanğıcından günümüze kadar Türkiye dışındakı türk edebiyatları antalojisi: 32 cilddə, VI c., Ankara: Kültür Bakanlığı, 1997, 485 s.

8. Bayatlı H. İrak türkmen edebiyatında serbest şiir tartışmaları// "Turkish Studies" dergisi. 2012, №7/1, s.1597-1605.

9. Erdoğan A. Ata Terzibaşı, Kerkük Şairleri:1, Edirne: Trakya Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2007, 174 s.

10. Hüseyinoğlu S. Ata Terzibaşı insanlığa manevi servet bırakıp gitti// "Kardaşlık" dergisi. Nisan-Haziran, 2016, yıl: 18, №70, s.15-17.

11. Küzeci S. Kerkükün temel taşı Ata Terzibaşının ardından. http://turkocaklari.org.tr/sayfa/6499/kerkuk-un-temel-tasi-ata-terzibasi-nin-ardindan.html

12. Şakir M.B. Irakta 20. Asır Türkmen Edebiyatı, İstanbul: Kültür ve Turizm Bakanlığı, 2008, 159 s.

13. Terzibaşı Ə. Fuzuli hakkında yazılar. İstanbul: Kültür ve Turizm Bakanlığı, 2016, 224 s.

14. Terzibaşı A. Kerkük şairleri. 4 ciltte, I c., İstanbul: Ötüken Neşriyat, 2013, 390 s.

Hulya Aslanova

Ata Terzibashi: folklore research and scientific-literary views

S u m ma r y

The article provides general information about the life and works of the outstanding representative of the Iraqi-Turkman literature – Ata Terzibashi, who played a significant role in the revival and development of Iraqi-Turkman literature, especially folklore. Particular attention is paid to his research in the field of folklore and scientific-literary views. Many of the facts presented in the article were substantiated by words from the mouth of Terzibashi himself.

Хулья Асланова

Ата Терзибашы: фольклорные исследования и научно-литературные взгляды

Р е з ю м е

В статье изложена общая информация о жизни и творчестве выдающегося представителя иракско-туркманской литературы Ата Терзибашы, который сыграл немалую роль в возрождении и развитии иракско-туркманской литературы, в особенности фольклора. Особое внимание уделяется его исследованиям в области фольклора и научно-литературным взглядам. Многие факты, изложенные в статье, были обоснованы словами из уст самого Терзибашы.

KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ

Rafael Hüseynov. Crossroad points generated by Nizami Ganjavi's literary model building in eastern and western literature 5
Cəmilə Dəmirova. Salih ibn Abd əl-Quddus və Bəşşar ibn Burd Abbasi inkvizisiyanın ilk qurbanları kimi 17
Könül Eyvazova. Ərəb yazısının mənşəyi 27
Şıxəli Əliyev. İmrul-Qeysin müəlləqəsinin Xətib Təbrizi şərhi.....40
İlhamə Gültəkin. Türkdilli xalqların mifologiyasında totemlər 56
Xuraman Həsənova. Fayiz Dəştistaninin dübeytilərinin mövzu xüsusiyyətləri.....66
Dilbər Hüseynova. Nizami Gəncəvinin "Xəmsə"sində musiqi elementlərinin bədii ifadəsi 75
Tariel Qəni. Epos yaradıcılığı və milli epik ənənənin ümumi aspektləri (Şirvan dastanları əsasında) 81
Rəhilə Sadıqova. Nağılın insan şüurunda uzunəsrlik hökmranlığı 89
Fəridə Vəliyeva. Əhməd Fakihin həyat, yaradıcılıq və mənqibələrinə yeni bir nəzər 95

YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES

Yeganə Abdullayeva. Britaniya postmodernist romanında janr polifonizmi (A.Bayett və L.Norfolkun yaradıcılıqları əsasında) 105
Hülya Aslanova. Əta Tərzibaşı: folklorşünaslıq fəaliyyəti və elmi-ədəbi fikirləri.....114
Aynur Həsənova. XX əsrin ilk onilliklərində Azərbaycanda "köhnə" və "yeni" ədəbiyyat arasında ideoloji mübarizə.....122
Ziyafət Hüseynova. Bəxtiyar Vahabzadənin qəzəl yaradıcılığında mövzu çalarlığı 132
Nərgiz Qəhrəmanova. Cəmiyyəti idarəetmə sisteminə bədii münasibətdə ənənəvilik 138
Sevil Məmmədəliyeva. İntihar əbədi və ədəbi problem kimi 147
Nərgiz Məmmədzadə. Zeynal Xəlil: həyat və yaradıcılığı.....154
Pərvin Mürsəlova. "Çinli kişilər" əsərində mühacir problemi və kimlik mücadiləsi.....159
Dürdanə Səmədova. Elmi-fantastik ədəbiyyatda postapokalipsis motivləri.....164
Nəzmiyyə Yigitoğlu. Ədəbiyyatda eşşək alleqoriyası satirik fikrin ifadə vasitəsi kimi.....170